© 2016 İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi**
**İqtisadi Təhlil və Analitik-İnformasiya Departamenti**

***“2016-cı il Azərbaycan tarixində dərin islahatlar ili kimi yadda qalacaq!”***

***Azərbaycan Respublikası Prezidenti***
***cənab İlham Əliyev***

**Vusal Musayev**

**Dekabr 2016**

Təqdim edilmiş hesabat üzrə mövcud ola biləcək hər hansı məlumat uyğunsuzluğu, fikirlər, yalnış informasiya və ya səhvə görə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi **məsuliyyət daşımır** və potensial səhvlər yalnız **müəllif(lər)ə məxsus olmaqla şəxsi mövqenin əks etdirilməsinə xidmət edir**.

**Aidiyyəti şəxs**: Dr. Vusal Musayev (İqtisad Elmləri Doktoru/London Universiteti), İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, İqtisadi Təhlil və Analitik-İnformasiya Departamenti; **Email**:Dr.Vusal.Musayev@ereforms.org

**Minnətdarlıq**
Hesabat İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) İqtisadi Təhlil və Analitik-İnformasiya Departamenti tərəfindən hazırlanmışdır. Hesabatın hazırlanması zamanı nümayiş etdirdikləri dəstəyə görə müəllif(lər) bu prosesdə iştirak etmiş şəxslərə öz minnətdarlığını bildirir(lər). Xüsusi minnətdarlıq İİTKM-nın Təcrübə Proqramının iştirakçıları Nərgiz Muradova, Çilənay Cəfərova və Cavid Yusifova ünvanlanır.

## 1. Giriş

Dünyada baş verən iqtisadi proseslər fonunda ölkə iqtisadiyyatının inkişafı, investisiya və biznes mühitinin daha da yaxşılaşdırılması, sahibkarlıq sektorunun genişləndirilməsi üçün əlverişli imkanların yaradılması, qeyri-neft sektoru üzrə ixrac potensialının artırılması, idxalın əvəzlənməsi, o cümlədən yerli sahibkarlara dövlət dəstəyinin gücləndirilməsi istiqamətində 2016-cı ildə bir sıra mühüm qərarlar qəbul edilib. Bu qərarlar üç əsas prioritet üzrə müəyyən edilmişdir:

1. İnstitusional islahat tədbirləri;
2. Biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı islahat tədbirləri;
3. İnvestisiyaların təşviq edilməsi istiqamətində islahat tədbirləri.

Təqdim edilmiş hesabat 2016-cı il üzrə həyata keçirilmiş bir sıra mühüm iqtisadi islahat tədbirlərinin qruplaşdırılaraq əks etdirilməsini özündə ehtiva etməkdədir.

## 2. Əsas İslahat Tədbirləri

### 2.1. İnstitusional İslahatlar

- **Maliyyə Bazarlarına Nəzarət Palatası.** Azərbaycan Respublikası Prezidentinin 3 Fevral, 2016-cı il tarixli fərmanı ilə Azərbaycan Respublikasının qiymətli kağızlar bazarı, investisiya fondları, sığorta, kredit təşkilatları (bank, bank olmayan kredit təşkilatları və poçt rabitəsinin operatoru) və ödəniş sistemləri fəaliyyətinin lisenziyalaşdırılması, tənzimlənməsi və nəzarəti, habelə cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması sahəsində nəzarət sisteminin təkmilləşdirilməsini, həmçinin bu sahələr üzrə nəzarət sisteminin şəffaflığını və çevikliyini təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası publik hüquqi şəxsi yaradılmışdır. Ölkənin maliyyə sisteminin daha da sabit və dayanıqlı, rəqabətqabiliyyətliliyinin isə daha yüksək olması üçün maliyyə bazarlarının fəaliyyətinin səmərəli şəkildə təmin olunması, eləcə də kreditorların, investorların və sığorta olunanların hüquqlarının qorunması tələbi Maliyyə Bazarlarına Nəzarət Palatasının yaradılmasının əsas məqsədlərindəndir.

- **İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi.** Azərbaycan Respublikası Prezidentinin 16 Fevral, 2016–cı il tarixli fərmanı ilə icbari tibbi sığortanın tətbiqini təmin edən, baza (əsas xidmətlər) zərfi çərçivəsində tibbi xidmətlərin maliyyələşdirilməsi üçün vəsaitləri özündə cəmləşdirən, səhiyyə xidmətlərinin alıcısı olan və bununla bağlı zəruri xərclərin ödənilməsini təmin edən icra hakimiyyəti orqanı olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi yaradılmışdır.

- **Mənzil İnşaatı Dövlət Agentliyi (MİDA).** Azərbaycan Respublikası Prezidentinin 11 Aprel, 2016–cı il tarixli fərmanı ilə Azərbaycan Respublikası vətəndaşlarının yaşayış sahələrinə olan ehtiyacını ödəmək, onların mənzil-məişət şəraitini yaxşılaşdırmaq, müasir memarlıq üslubunda ekoloji və enerji səmərəliliyi tələblərinə cavab verən çoxmənzilli binaların tikilməsini təmin etmək, habelə bununla bağlı şəhərsalma və tikinti sahələrində dövlət idarəetməsini təkmilləşdirmək məqsədi ilə Mənzil İnşaatı Dövlət Agentliyi yaradılmışdır. Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyi Azərbaycan Respublikasında çoxmənzilli yaşayış binalarının və digər tikinti obyektlərinin tikintisini təşkil edən, Azərbaycan Respublikası vətəndaşlarının güzəştlə mənzil əldə etmələrinə şərait yaradan, çoxmənzilli yaşayış binalarının tikintisi üçün ayrılan maliyyə vəsaitlərindən səmərəli istifadə edilməsini təşkil və təmin edən, habelə bununla əlaqədar şəhərsalmanın planlaşdırılması, layihələndirilməsi və arxitektura sahələrində dövlət siyasətini və tənzimləməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

- **"Ərzaq məhsullarının tədarükü və təchizatı" Açıq Səhmdar Cəmiyyəti.** Azərbaycan Respublikası Prezidentinin 11 aprel, 2016-cı il tarixli sərəncamı ilə Kənd təsərrüfatı məhsullarının istehsalını və (və ya) emalını stimullaşdırmaq, kənd təsərrüfatı məhsulları istehsalçılarının inkişafını təmin etmək, ərzaq məhsullarının keyfiyyətini daha da artırmaq, dövlət vəsaitlərindən səmərəli istifadəni təmin etmək, regionlarda kənd təsərrüfatı ilə məşğul olan əhalinin sosial rifahının yaxşılaşdırılmasına zəmin yaratmaq, dövlət sifarişi ilə ərzaq məhsullarının satın alınmasının mərkəzləşdirilmiş qaydada həyata keçirilməsini təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində "Ərzaq məhsullarının tədarükü və təchizatı" Açıq Səhmdar Cəmiyyəti yaradılmışdır. Cəmiyyətin əsas məqsədi ərzaq məhsullarının istehsalçılarından və satıcılarından belə məhsulları almaq və tədarük edərək satınalan təşkilatlara təqdim etməkdir.

- **Dövlət İmtahan Mərkəzi.** Azərbaycan Respublikası Prezidentinin 11 Aprel, 2016-cı il tarixli fərmanı əsasında Azərbaycan Respublikasında dövlət qulluğu üçün kadrların müsabiqə əsasında seçilməsini, ümumi təhsil pilləsində təhsilalanların yekun qiymətləndirilməsini (attestasiyasını), orta ixtisas təhsili müəssisələrinə, ali təhsil müəssisələrində ali təhsilin bakalavriat və magistratura (tibb təhsili üzrə əsas təhsil və rezidentura) səviyyələrinə, Azərbaycan Milli Elmlər Akademiyasında magistratura səviyyəsinə mərkəzləşdirilmiş qəbul imtahanlarının keçirilməsini təşkil etmək məqsədi ilə Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsi yaradılmışdır. Bununla yanaşı, mərkəzin yaradılmasının əsas məqsədi "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"na əsaslanaraq, təhsil müəssisələrinə tələbə qəbulunu beynəlxalq təcrübəyə uyğunlaşdırmaqdır.

- **İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi.** Azərbaycan Respublikası Prezidentinin 20 Aprel, 2016-cı il 879 nömrəli fərmanı əsasında aparılan iqtisadi islahatların

əhatə dairəsinin genişləndirilməsini və bu sahədə işlərin səmərəli əlaqələndirilməsini təmin etmək məqsədilə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi yaradılmışdır. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin fəaliyyətinin məqsədləri ölkənin dayanıqlı iqtisadi inkişafının təmin edilməsi istiqamətində makro və mikroiqtisadi səviyyədə təhlil və tədqiqatlar aparmaqdır. Qurum analitik məlumatlar əsasında iqtisadi islahatların həyata keçirilməsi üçün təkliflər, habelə orta və uzun müddətli dövr üçün proqnozlar hazırlayır, dövlət orqanlarını və qurumlarını həmin proqnozlarla təmin edir, həmçinin iqtisadiyyatın müxtəlif sahələrində Azərbaycan Respublikasının nailiyyətlərinin təbliğini təşkil edir.

- **Biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması üzrə Dövlət Komissiya.** Azərbaycan Respublikası Prezidentinin 13 İyul, 2016 tarixli sərəncamı ilə ölkənin biznes və investisiya mühitinin əlverişliliyini, yerli və xarici investorlar üçün cəlbediciliyini daha da artırmaq, sahibkarlıq sahəsində son illərdə nail olunmuş sürətli inkişafın davamlığını təmin etmək və rəqabət qabiliyyətini möhkəmləndirməklə, biznes mühitinin daha da yaxşılaşdırılması üçün Komissiya yaradılmışdır. Komissiyanın yaradılma məqsədi göstərilən hədəflərə nail olmaq üçün dövlət tərəfindən ardıcıl olaraq dövlət-sahibkar münasibətlərinin inkişaf etdirilməsi, sahibkarlıq fəaliyyətinə qanunsuz müdaxilələrin və süni maneələrin aradan qaldırılması, rəqabət qabiliyyətliyinin və ixrac imkanlarının genişləndirilməsi, sahibkarlara dövlət dəstəyi və təşviq mexanizmlərinin formalaşdırılması, beynəlxalq standartlara uyğun elektron dövlət xidmətlərin göstərilməsi sahəsində kompleks tədbirlərin həyata keçirilməsidir.

- **Maliyyə Sabitliyi Şurası.** Azərbaycan Respublikası Prezidentinin 15 İyul, 2016-cı il tarixli fərmanı əsasında ölkənin makroiqtisadi sabitliyinin daha da möhkəmləndirilməsi və maliyyə dayanıqlılığının təmin edilməsi, bu sahədə koordinasiya olunmuş siyasətin həyata keçirilməsi, habelə səmərəli tənzimləmə və hüquqtətbiqetmə praktikasına nail olunması, o cümlədən makroiqtisadi və maliyyə sabitliyinin təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Maliyyə Sabitliyi Şurası yaradılmışdır. Maliyyə və fiskal siyasətlərin uzlaşdırılması üçün daha çevik vahid plaforma yaratmaq məqsədilə şuranın tərkibinə həm maliyyə, həm də fiskal siyasətə cavabdeh olan qurumların rəhbərləri daxil edilib. Maliyyə Sabitliyi Şurası bütün resursları mobilizasiya edərək makro çərçivəni daha dəqiq müəyyənləşdirməyə, həmçinin fiskal və maliyyə siyasətlərinin bir-birini tamamlamasına zəmin hazırlayır.

- **Azərbaycan Respublikası Turizm Şurası.** Azərbaycan Respublikası Prezidentinin 1 Sentyabr, 2016 -cı il tarixli sərəncamı ilə Azərbaycan Respublikasında turizm sahəsində mövcud vəziyyəti təhlil etmək, bu sahədə olan problemlərin aradan qaldırılması üçün müvafiq tədbirləri həyata keçirmək, turizm sahəsində dövlət orqanlarına həvalə edilmiş vəzifələrin icrasını əlaqələndirmək məqsədilə Azərbaycan Respublikası Turizm Şurası yaradılmışdır. Şura funksiyaların həyata keçirilməsi üçün müstəqil ekspertləri və mütəxəssisləri cəlb edə bilər,

habelə işçi qruplar yaratmaq səlahiyyətinə malikdir. Ölkədə turizm infrastrukturunun inkişaf etdirilməsi və beynəlxalq standartlara cavab verən turizm xidmətlərinin formalaşdırılması bu sahənin qanunvericilik bazasının və dövlət tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi, mövcud turizm potensialından istifadə imkanlarının genişləndirilməsi, regionlarda turizm fəaliyyətinin stimullaşdırılması, yeni turizm marşrutlarının yaradılması, habelə rəqabətədavamlı qiymət təklifinin təmin edilməsi zərurəti şuranın yaradılmasının başlıca səbəblərindəndir. Bundan başqa, ölkənin turizm potensialının daha da artırılmasını və beynəlxalq səviyyədə tanıdılmasını təmin etmək məqsədilə "Milli Turizm Təbliğat Bürosu" publik hüquqi şəxsi yaradılmışdır.

- **"ABAD" (Ailə Biznesinə ASAN Dəstək).** Azərbaycan Respublikası Prezidentinin 23 Sentyabr, 2016–cı il tarixli fərmanı əsasında Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində "ABAD" publik hüquqi şəxsi yaradılmışdır. ABAD – ailə bizneslərinin formalaşdırılması, bu təsərrüfatlar vasitəsilə məhsulların istehsalı, xidmətlərin göstərilməsi və brendləşdirilməsi, istehsalçıya və tələbata uyğun keyfiyyətli məhsulların istehsal və istehlakının təşviq edilməsi, bütün proseslərdə peşəkar yanaşma və innovativ üsullar tətbiq edilməklə müxtəlif təsərrüfat sahələri üzrə fəaliyyətin istiqamətləndirilməsini həyata keçirən mərkəzdir. Mərkəzin yaradılmasının əsas məqsədləri regionların sosial iqtisadi inkişafına dəstək olmaq, regional inkişafda vətəndaş iştirakını təmin etmək, bölgə əhalisinin məşğulluq səviyyəsinin artırılmasına nail olmaq, ölkə daxilində rəqabət qabiliyyətli fərdi ailə bizneslərinin formalaşdırılmasına dəstək verməkdir.

- **Milli Əlaqələndirmə Şurası.** Azərbaycan Respublikası Prezidentinin 6 Oktyabr, 2016–cı il tarixli fərmanı əsasında "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"dən irəli gələn öhdəliklərlə bağlı dövlət orqanlarının üzərinə düşən vəzifələrin icrasının əlaqələndirilməsi məqsədilə Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası yaradılmışdır. Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının əsas məqsədi 2030-cu ilədək Azərbaycan üçün əhəmiyyət kəsb edən, qlobal məqsəd və hədəflərə uyğun milli prioritetləri və onlara dair göstəriciləri müəyyən etməkdən, ölkədə sosial-iqtisadi sahələri əhatə edən dövlət proqramlarının və strategiyaların Dayanıqlı İnkişaf Məqsədləri ilə uzlaşdırılmasını təmin etməkdən, habelə Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunması ilə əlaqədar illik hesabatlar hazırlamaqdan ibarətdir. Şura funksiyaların həyata keçirilməsi üçün yerli və xarici ekspertləri, mütəxəssisləri, beynəlxalq təşkilatları və elm müəssisələrini, habelə ayrı-ayrı istiqamətlər üzrə işçi qruplarını cəlb etmək səlahiyyətinə malikdir.

- **Kredit büroları.** Azərbaycan Respublikası Prezidentinin 7 Dekabr, 2016–cı il tarixli fərmanı əsasında "Kredit büroları haqqında" Azərbaycan Respublikasının 2016-cı il 28 oktyabr tarixli Qanunu təsdiq edilmişdir. Bu Qanunun məqsədi fiziki və hüquqi şəxslərə öz maliyyə

öhdəliklərinin icrası barədə uzunmüddətli məlumat bazasının formalaşdırılması yolu ilə maliyyə xidmətlərinə çıxış imkanlarının yaxşılaşdırılması, borc münasibətlərində maliyyə intizamının möhkəmləndirilməsi və ölkədə maliyyə sisteminin sabitliyinin təmin edilməsinə dəstək verilməsidir. Kredit büroları məhdud məsuliyyətli cəmiyyət və ya səhmdar cəmiyyəti formasında yaradılır. Kredit bürosu kredit tarixçəsi subyektinin kredit tarixçəsini təşkil edən məlumatları toplayır, saxlayır, təhlil edir və kredit hesabatlarının hazırlanmasının həyata keçirir.

### 2.2. Biznes və İnvestisiya Mühitinin İnkişaf Etdirilməsi ilə bağlı İslahat Tədbirləri

Başa vurduğumuz 2016–cı ildə biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması və investisiyaların təşviq edilməsi istiqamətində də bir sıra mühüm tədbirlər planı hazırlanmış və tətbiqi həyata keçirilmişdir.

Hazırda dünyada gedən siyasi və iqtisadi proseslər ölkə iqtisadiyyatının rəqabət qabiliyyətini artırmaq, idxaldan asılılığı azaltmaq, ixracyönümlü qeyri-neft iqtisadiyyatının əsaslı inkişafını təmin etmək, insan kapitalından səmərəli istifadə etmək kimi prioritetlərin ön plana çəkilməsini zəruri edir.

- Azərbaycan Respublikası Prezidentinin 16 mart, 2016–cı il tarixli sərəncamı ilə **“Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri”** təsdiq edilmiş və müvafiq olaraq inkişaf planlarının işlənilməsi məqsədi ilə İşçi qrupu yaradılmışdır. Strateji yol xəritəsi Azərbaycan iqtisadiyyatını iterasiya metodu ilə hərtərəfli şəkildə - həm makro (milli iqtisadiyyat), həm də mikro (sektorlar) səviyyədə əhatə edəcək şəkildə hazırlanmışdır. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı əsasında Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri aşağıda göstərilmiş perspektivlər üzrə təsdiq edilmişdir:

1. "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi";

2. "Azərbaycan Respublikasının neft və qaz sənayesinin (kimya məhsulları daxil olmaqla) inkişafına dair Strateji Yol Xəritəsi";

3."Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi";

4. "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi";

5. "Azərbaycan Respublikasında ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi";

6. "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi";

7. "Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi";

8. "Azərbaycan Respublikasında uyğun qiymətə mənzil təminatının inkişafına dair Strateji Yol Xəritəsi";

9. "Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi";

10. "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi";

11. "Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi";

12. "Azərbaycan Respublikasında kommunal xidmətlərin (elektrik və istilik enerjisi, su və qaz) inkişafına dair Strateji Yol Xəritəsi".

Təsdiq edilən strateji yol xəritələrində nəzərdə tutulmuş fəaliyyətlərlə bağlı monitorinq, qiymətləndirmə və kommunikasiya tədbirlərini İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirir.

- Azərbaycan Respublikası Prezidentinin 21 may, 2016–cı il tarixli fərmanı əsasında **"Malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi üçün "Yaşıl dəhliz" və digər buraxılış sistemlərindən istifadə Qaydaları"** təsdiq edilmişdir. Fərmana əsasən malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçməsi üçün aşağıdakı buraxılış sistemləri tətbiq ediləcək: yaşıl, mavi, sarı və qırmızı dəhlizlər. Belə ki, malın hansı dəhlizdən keçməsi avtomatlaşdırılmış elektron informasiya sistemi vasitəsilə risk qiymətləndirilməsi əsasında həyata keçirəcəkdir.

- Azərbaycan Respublikası Prezidenti tərəfindən 26 may, 2016-cı il **tarixində "Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" və "Dövlət rüsumu haqqında" Qanunda dəyişiklik edilməsi barədə** Azərbaycan Respublikasının Qanunlarını imzalanmışdır. Dəyişikliklərə əsasən dəmir yolu ilə nəql edilən yüklər Azərbaycan ərazisindəki son dəmiryolu stansiyasında xarici dövlətlərin yük avtomobillərinə, qoşqulu və yarımqoşqulu avtonəqliyyat vasitələrinə aşırılaraq ən yaxın gömrük sərhəd buraxılış məntəqəsindən keçirilməklə digər dövlətə daşındıqda və əksinə iyunun 1-dən 3 il müddətində yol vergisi və dövlət rüsumundan azad edilmişdir.

- Azərbaycan Respublikası Prezidenti tərəfindən 1 iyun 2016-cı il tarixində "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında", **"Azərbaycan**

**Respublikasının Miqrasiya Məcəlləsində dəyişikliklər edilməsi haqqında", "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" və"Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə**" Qanun imzalanmışdır. Ölkədə qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi, sahibkarlığın dəstəklənməsi, müasir texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənaye istehsalının təşkili sahəsində fəaliyyət göstərən sahibkarlara güzəştlərin tətbiqi, onların inzibati yükünün azaldılması, bu sahənin inkişafının stimullaşdırılmasına dövlət dəstəyini göstərilməsi qanunların qəbul olunmasının əsas məqsədi olaraq çıxış etmişdir. Konkret olaraq, bu dəyişikliklər **Qaradağ Sənaye Parkı**nda gəmiqayırma fəaliyyətinin təşkilinə dövlət tərəfindən verilən böyük islahat dəstəyi kimi qəbul edilə bilər. Beləliklə, Qaradağ Sənaye Parkının ilk rezidenti statusu almış "Bakı Gəmiqayırma Zavodu" MMC-nin fəaliyyətinə hərtərəfli şərait yaradılmışdır.

- Azərbaycan Respublikası Prezidenti 13 İyul, 2016–ci il tarixində Azərbaycan Respublikasında aparılan iqtisadi islahatların sürətləndirilməsi, ölkənin metallurgiya kompleksinin sağlamlaşdırılması və restruktizasiyası, bu sahəyə investisiyaların cəlb edilməsi məqsədi ilə **Azərbaycan Respublikasının metallurgiya kompleksində sağlamlaşdırma və restrukturizasiya tədbirlərinin həyata keçirilməsi haqqında** sərəncam imzalamışdır.

- Azərbaycan Respublikası Prezidenti 4 avqust 2016-cı ildə **"2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri"**nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında sərəncam imzalamışdır. Sərəncam vergi ödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı etimadın və şəffaflığın daha da artırılması, sahibkarlara əlverişli şəraitin yaradılması və ölkə iqtisadiyyatının davamlı inkişaf tempinə uyğun olaraq real vergi potensialının müəyyən edilməsi üçün vergi sistemində islahatların davam etdirilməsi və vergi inzibatçılığının daha da təkmilləşdirilməsini təmin edəcəkdir. Vergi ödəyiciləri ilə vergi orqanları arasında birbaşa təmasın minimuma endirilməsi məqsədilə elektron auditin tətbiq dairəsi genişlənəcək, Vergilər Nazirliyinin Çağrı Mərkəzində beynəlxalq təcrübədə tətbiq olunan "Outbound Call Centre" (geriyə - müştəriyə zəng xidməti) funksiyası tətbiq olunacaqdır.

- Azərbaycan Respublikası Prezidentinin "**Azərbaycan Respublikasında istehsal olunan malların vahid məlumat bazasının yaradılması haqqında"** 21 sentyabr 2016-cı il Sərəncamıyla "Azexport.az" portalı yaradılmışdır. "Azexport.az" Azərbaycan məhsullarını dünyanın istənilən nöqtəsində potensial alıcılar üçün əlçatan edir. Bu missiyanın həyata keçirilməsi üçün aparıcı dünya və yerli nəqliyyat-logistika şirkətləri "Azexport.az" ilə inteqrasiya edilmişdir. "Azexport.az" portalı VISA, Master Card və American Express kart sahibləri üçün ödənişin sürətli və təhlükəsiz şəkildə həyata keçirilməsini təmin edir.

- Azərbaycan Respublikasının Prezidentinin 5 oktyabr 2016-cı il tarixli fərmanı əsasında "Xarici ölkələrə ixrac missiyalarının təşkilinə, xarici bazarların araşdırılması və marketinq

fəaliyyətinə, **“Made in Azerbaijan”** brendinin xarici bazarlarda təşviqinə, yerli şirkətlərin ixracla bağlı xarici ölkələrdə sertifikat və patent almasına, ixracla əlaqəli tədqiqat-inkişaf proqram və layihələrinə çəkilən xərclərin dövlət büdcəsi hesabına ödənilən hissəsinin müəyyənləşdirilməsi və ödənilmə mexanizminin tənzimlənməsi Qaydası”ı təsdiq edilmişdir.

- Azərbaycan Respublikası Prezidenti tərəfindən 21 oktyabr 2016-cı il tarixində **“Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında”** Azərbaycan Respublikasının 2016-cı il 30 sentyabr tarixli 318-VQD nömrəli Qanununun tətbiqi barədə Sərəncam imzalamışdır. Ölkə iqtisadiyyatının bütün sferaları üzrə həyata keçirilən islahatların səmərəliliyinin, biznes mühitinin həm yerli, həm də xarici sahibkarlar üçün əlverişliliyinin təmin edilməsi məqsədilə vergi sistemində dövrün tələbinə uyğun bir sıra zəruri dəyişikliklər həyata keçirilmişdir. Dəyişikliklərin həyata keçirilməsi ölkədə biznes mühitinin əlverişliliyi, optimal vergi dərəcələrinin tətbiqi, tranzit yük daşınma sahəsində bəzi yeniliklər baxımından da faydalı olacaq. Dəyişiklik həm avtomobil, həm də gəmi ilə tranzit yükdaşımalarının, həcminin, sahibkarlar üçün gəlirlərin artması üçün münbit şərait yaradacaqdır.

- Azərbaycan Respublikası Prezidenti 9 Noyabr, 2016–cı il tarixində **Milli Elmlər Akademiyası (AMEA) Yüksək Texnologiyalar Parkı**nın yaradılması haqqında Sərəncam imzalayıb. Adıçəkilən parkda həyata keçirilən tədqiqatların nəticələrinin istehsal və xidmət sahələrində tətbiqi üçün lazım olan infrastruktur və maddi-texniki bazanın yaradılması planlaşdırılmaqdadır. Yaradılan yüksək texnologiyalar parkı innovasiya məhsulunun və yüksək texnologiyaların hazırlanması, işlənilməsi və ya təkmilləşdirilməsi məqsədi ilə elmi tədqiqatların və təcrübə-konstruktor işlərinin aparılmasına töhfə verəcək. Bu sahədə səlahiyyətli orqan olan AMEA parkın ərazisində sahibkarlıq fəaliyyətinin səmərəliliyini təmin etmək üçün digər xidmətlərin göstərilməsini də təmin edəcək. Qanunda nəzərdə tutulan dəyişikliklərin həyata keçirilməsi ölkədə biznes mühitinin əlverişliliyi, optimal vergi dərəcələrinin tətbiqi, tranzit yük daşınma sahəsində bəzi yeniliklər baxımından da faydalı olacaq. Dəyişiklik həm avtomobil, həm də gəmi ilə tranzit yükdaşımalarının həcminin, eyni zamanda sahibkarlar üçün gəlirlərin atması deməkdir.

- Azərbaycan Respublikası Prezidentinin 16 noyabr, 2016-cı il tarixli sərəncamı ilə ölkədə kənd təsərrüfatının ənənəvi sahələrindən olan **ipəkçiliyin və fındıqçılığın inkişafının sürətləndirilməsi**, bu sahələrin potensial imkanlarından səmərəli istifadə edilməsi və məhsul istehsalına əhalinin marağının artırılması məqsədi ilə “İpəkçiliyin və fındıqçılığın inkişafına dövlət dəstəyinin gücləndirilməsi ilə bağlı əlavə tədbirlər” planı hazırlanmışdır. Sərəncama əsasən tədarük olunan barama toxumlarının, tut (çəkil) tinglərinin və fındıq pöhrələrinin şəhər və rayonların tələbatı nəzərə alınmaqla, məhsul istehsalçılarına əvəzi ödənilmədən paylanılmasını, həmin sahə ilə məşğul olan istehsalçılar, habelə şəhər və rayonların tələbatı barədə məlumatı Azərbaycan Respublikasının Prezidentinə Kənd Təsərrüfatı Nazirliyi təqdim edəcək. Bununla

yanaşı 14 yanvar, 2016–cı il tarixində “Pambıqçılıq haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə qanun qəbul edilmişdir.

- Azərbaycan Respublikası Prezidentinin 24 noyabr, 2016-cı il tarixli fərmanı əsasında **“Elektron ipoteka”** sistemi haqqında əsasnamə təsdiq edilmişdir. Elektron sistem “Elektron hökumət portalı”nda yaradılır və ona inteqrasiya edilir. Elektron sistemin tətbiqinin məqsədi ipoteka kreditlərinə çıxış imkanlarının sadələşdirilməsindən, ipoteka krediti almaq istəyən şəxslər üçün bərabər şəraitin yaradılmasından, müraciətlərə baxılma zamanı şəffaflığın və operativliyin təmin edilməsindən, habelə informasiya-kommunikasiya texnologiyalarının imkanlarından faydalanaraq tələb olunan sənədləri real vaxt rejimində əldə etməklə, sərf olunan vaxta və xərclərə qənaət olunmasına, göstərilən xidmətlərin keyfiyyətinin və səmərəliliyinin artırılmasına nail olmaqdan ibarətdir.

- Azərbaycan Respublikası Prezidentinin 7 dekabr, 2016-cı il tarixli fərmanı əsasında “Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin investorlar tərəfindən **“Tik – idarə et – təhvil ver”** modeli çərçivəsində həyata keçirilməsinin şərtləri, tikinti və infrastruktur obyektlərinin növlərinə uyğun olaraq investorlar qarşısında qoyulan tələblər, bağlanılan müqavilələrin xüsusiyyətləri və şərtləri, investisiya qoyuluşu nəticəsində əldə olunacaq mal və xidmətlərin dəyərinin müəyyənləşdirilməsi Qaydası”ı təsdiq edilmişdir.

- Azərbaycan Respublikası Prezidenti tərəfindən 21 dekabr, 2016-cı il tarixində **“Elektron imza və elektron sənəd haqqında”** Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2016-cı il 11 noyabr tarixli 400-VQD nömrəli Qanununun tətbiqi haqqında fərman imzalanmışdır.

- İnvestisiya fəaliyyətinin genişləndirilməsi, biznes mühitinin inkişaf etdirilməsi, sənaye istehsalının artırılması və “Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı”nın həyata keçirilməsi üzrə Tədbirlər Planınına uyğun olaraq investisiyaların təşviqi ilə bağlı mexanizmin təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 18 yanvar 2016-cı il tarixli “İnvestisiyaların təşviqi ilə bağlı əlavə tədbirlər haqqında” fərmanı əsasında **“investisiya təşviqi sənədi”**nin verilməsi qaydaları təsdiqlənib.

İnvestisiya təşviqi sənədi - sahibkarlara Azərbaycan Respublikasının Vergi Məcəlləsində və “Gömrük tarifi haqqında” Qanununda müəyyən edilmiş güzəştləri əldə etməyə əsas verən sənəddir. Gömrük tarifi haqqında” Qanunda müəyyən edilmiş güzəşt idxal edilən texnika, texnoloji avadanlıq və qurğuların gömrük rüsumundan azad olunmasını nəzərdə tutur. Vergi Məcəlləsində müəyyən edilmiş güzəştlər hüquqi şəxslərin mənfəət vergisinin və (və ya) fiziki şəxslərin gəlir vergisinin 50% güzəştlə ödənilməsi; hüquqi şəxslərin və fərdi sahibkarların torpaq

və əmlak vergisindən azad olunması; texnika, texnoloji avadanlıq və qurğuların idxalda ƏDV-dən azad olunması ilə əlaqədardır. Təsdiqedici sənədi almaq üçün sahibkar "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanunununa uyğun olaraq, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə ərizə ilə müraciət etməsi nəzərdə tutulur.

- Habelə, ölkədə dayanıqlı iqtisadi inkişafın təmin edilməsinin əsas şərtlərindən biri olaraq qeyri-neft sektorunun inkişaf etdirilməsi üçün Azərbaycan Respublikasının ərazisində yaradılan qeyri-neft məhsullarının dəyərinin xüsusi çəkisindən, habelə ixrac olunan həmin məhsulların növündən asılı olaraq, Azərbaycan Respublikasının ərazisində qeyri-neft məhsullarının ixracı ilə məşğul olan şəxslərə dövlət büdcəsinin vəsaiti hesabına **ixrac təşviqi** ödənilməsini nəzərdə tutan 1 Mart, 2016-cı il tarixli fərman imzalanmışdır. Eyni zamanda, Fərmanla müəyyən edilmşdir ki, ödəniləcək ixrac təşviqinin baza məbləği ixrac əməliyyatlarına görə faktiki ixrac olunmuş malın ixrac gömrük bəyannaməsində nəzərdə tutulan gömrük dəyərinin 3 faizini təşkil edir.

- Azərbaycan Respublikası Prezidenti Azərbaycan Respublikası Mənzil İnşaatı Dövlət Agentliyinin fəaliyyəti ilə bağlı bəzi məsələlər haqqında 16 Noyabr, 2016-cı il tarixli Fərmanına əsasən **"Elektron hökumət" portalında "Güzəştli mənzil" sistemi** yaradılmalı və 2017-ci il mayın 1-dən tətbiq edilməlidir. "Güzəştli mənzil" sistemi, cəmiyyətin sərəncamında olan mənzillərin güzəştlə əldə edilməsi üçün tələb olunan sənədlərin siyahısının və şərtlər barədə məlumatın mövcudluğunu, mənzilləri güzəştlə əldə etmək istəyən şəxsin elektron müraciətinin real vaxt rejimində qeydiyyata alınaraq göndərilməsini, mənzillərin güzəştlə əldə edilməsi üçün tələb olunan, istəyənin şəxsiyyətini təsdiq edən sənəd üzrə eləcə də ailə tərkibi barədə məlumatların alınmasını, mənzilləri güzəştlə əldə etmək məqsədi ilə müraciət etmiş şəxslərin Cəmiyyət tərəfindən vahid və ictimaiyyət üçün açıq olan qeydiyyatının aparılmasını, mənzili güzəştlə əldə etmək məqsədi ilə müraciət etmiş şəxs üçün elektron kabinetin yaradılmasını təmin edir.

## 3. Yekun

Aparılan iqtisadi islahatların əsas hədəfi milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin yüksəldilməsinə və dünya təsərrüfat sisteminə səmərəli inteqrasiyasına nail olmaqla, uzunmüddətli perspektivdə ölkədə dinamik sosial-iqtisadi inkişafın davamlılığını təmin etməkdən ibarətdir. Azərbaycan Respublikası Prezidenti tərəfindən imzalanmış fərmanlarda, təsdiq edilmiş iqtisadi siyasət sənədlərində bu hədəfin reallaşması üçün yerinə yetirilməsi zəruri olan vəzifələr müəyyənləşdirilmişdir. Bunlara ölkənin malik olduğu iqtisadi potensialın gücləndirilməsi və bu potensialın kompleks şəkildə səmərəli reallaşdırılması, o cümlədən qeyri-neft sektorunun inkişaf etdirilməsi, hər bir regionun malik olduğu potensialdan tam və səmərəli istifadə olunması və onların inkişafının tarazlaşdırılması, sahibkarlığın inkişaf etdirilməsi, sosial

xidmətlərin həcminin, keyfiyyətinin və ünvanlılığının əhəmiyyətli dərəcədə artırılması, yoxsulluğun azaldılması kimi vəzifələri aid etmək olar.

Azərbaycan Respublikası Prezidentinin çıxış nitqində də qeyd edildiyi kimi, başa vurduğumuz 2016–cı ildə tətbiq edilən iqtisadi siyasət və həyata keçirilmiş iqtisadi islahatlar vasitəsilə Azərbaycan iqtisadiyyatı öz dayanıqlılığını saxlaya bilmiş və iqtisadi sabitlik təmin edilmişdir. Bununla yanaşı, bu il aparılan ciddi və hərtərəfli iqtisadi islahatlar ölkənin gələcək inkişafı üçün həyata keçirələcək davamlı iqtisadi islahatlar prosesi üzrə münbit şərait yaradaraq geniş spektrli iqtisadi perspektivlərin yaranmasına xidmət edəcəkdir.